Məmmədova N.A.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.71-81
UOT 349.3

# Ailə başçısını itirməyə görə əmək pensiyası: hüququn realizəsində mübahisəli məqamlar və həlli yolları

**Xülasə:** Dövlətin istənilən sahədə inkişafındahəmin sahə münasibətlərini tənzimləyən qanunların əhəmiyyəti danılmazdır. İctimai münasibətlərin müəyyən sahəsinin tənzimlənməsində xüsusi səlahiyyət verilmiş hüquqi aktlarda olan ziddiyyətlər qanun normalarını tətbiq edən tərəflərdə cavabı qanunvericilik baxımından açıq qalan suallar yaranmasına səbəb olur.Hazırki məqalədə qanunvericiliyin əsas istiqamətlərindən biri olan sosial təminat hüququ sahəsində ailə başçısını itirməyə görə əmək pensiyası hüququnun tətbiqi ilə bağlı təcrübədə yaranmış suallardan və bu hüquqla bağlı qanunvericiliyə təklif edilən əlavə və dəyişikliklərdən bəhs edilmişdir.

**Açar sözlər:** ailə başçısını itirməyə görə əmək pensiyası; ailə; ailə başçısı; ailəni dolandıran şəxs; ailə üzvləri; yaxın qohumlar.

## 1. Giriş

Azərbaycan Respublikasının Konstitusiyasının (bundan sonra Konstitusiya) 38-ci maddəsinə əsasən hər kəsin sosial təminat hüququ vardır [1, mad. 38]. Sosial təminat hüququ sferasında ən mühüm sahələrdən biri əmək pensiyalarıdır. Əmək pensiyası dövlət tərəfindən vətəndaşlara onların pensiya hüququ yaranmazdan əvvəl əldə etdikləri gəlirlərin kompensasiyası məqsədilə ödənilən pul vəsaitidir [2, mad. 1.0.1]. Hazırki sosial təminat qanunvericiliyinə əsasən əmək pensiyalarının 3 növü vardır: yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyası [2, mad. 4.1].

Ailə başçısını itirməyə görə əmək pensiyasının əsas təyinatı gəliri ailənin ümumi gəlirlərinin əsas hissəsini təşkil edən şəxsin vəfatından sonra ailənin digər üzvlərinin bu gəlirdən məhrum olmamasına şərait yaratmaq və ailə başçısının vəfatının ailəyə maddi təsirini minimuma endirməkdir [2, mad. 1.0.1]. Hazırda ailə başçısını itirməyə görə əmək pensiyası hüququ 2006-cı il 1 yanvar tarixindən qüvvədə olan Azərbaycan Respublikasının "Əmək pensiyaları haqqında" Qanunu [2] (bundan sonra "Qanun") ilə tənzimlənir.

Azərbaycan Respublikası kontinental hüquq sisteminə daxil olan ölkələrdən biri olduğu üçün hazırda ölkədəki hüquq münasibətləri qanunvericilikdə göstərilən normalar əsasında tənzimlənir. Qanunvericilik əksər hüquq münasibətlərinin necə tənzimlənməli olduğu ilə bağlı normalar müəyyənləşdirsə də, bəzən təcrübədə tənzimlənməsi mürəkkəb olan hallar yaranır. Bununla yanaşı, hətta təcrübədə xüsusi hallar yaranmasa belə, zaman-zaman qanunvericiliyə yeni normaların əlavə edilməli və ya mövcud normalara dəyişiklik edilməli olduğu nəzərə çarpır.

Hazırki məqalədə ilkin olaraq qanunvericilikdə olan ailə və ailə başçısını itirməyə görə əmək pensiyası anlayışları müəyyənləşdirilmişdir. Əsas anlayışlardan sonra ailə başçısını itirməyə görə əmək pensiyası hüququnun tətbiqi ilə bağlı təcrübədə yaranan və hazırki qanunvericilikdə cavabı

♦ **Məmmədova Nuranə Asif qızı** – Dövlət Sosial Müdafiə Fondunun Məhkəmə mübahisələri ilə iş üzrə mərkəzi filialının hüquqşünası, Bakı Dövlət Universitetinin hüquq fakültəsinin magistrantı (Azərbaycan). E-mail: m.nurane1999@gmail.com

açıq olan suallardan, həmçinin bir sıra digər hallarla əlaqədar olaraq qanunvericiliyə edilməsi məqsədə müvafiq hesab olunan əlavələrdən və dəyişikliklərdən bəhs edilmişdir. Sonda isə yaranan problemlərin həlli və qanunvericiliyin daha da təkmilləşdirilməsi üçün təkliflər verilmiş, nəticə qeyd edilmişdir.

**2. Qanunvericilikdə olan əsas anlayışlar**

a) Ailə anlayışı

Azərbaycan Respublikası ərazisində ailə münasibətlərini tənzimləyən əsas normativ sənəd Azərbaycan Respublikasının Ailə Məcəlləsidir. Ailə Məcəlləsində ailə anlayışına aydınlıq gətirilməmişdir.

Onu da vurğulamaq lazımdır ki, ailə anlayışına qanunvericilikdə vahid izah verilməsə də, 2006-cı il 1 yanvar tarixindən qüvvədə olan "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununun [3] 1.0.2-ci maddəsində bu anlayışa həmin qanunun məqsədlərinə uyğun olaraq aydınlıq gətirilmişdir. Belə ki, qeyd olunan maddəyə əsasən bu qanunun nizamladığı məsələlərdə **ailə anlayışına qohumluq və ya qanunvericiliklə müəyyən olunmuş digər xüsusiyyətlərə görə bağlılığı olan, birgə yaşayan, ümumi ev təsərrüfatına malik şəxslər və yaxud tənha yaşayan şəxslər daxil edilir** [3, mad. 1.0.2].

Ailə Məcəlləsinin bu məsələni tənzimləməməsi nəzərə alınaraq yuxarıda qeyd edilən norma analoji qaydada bütün milli hüquq sahələri üçün keçərli hesab edilsə, hazırki qanunvericiliyə əsasən bir neçə şəxsin ailə sayılması üçün aşağıdakı tələblər eyni zamanda mövcud olmalıdır:

1) Şəxslər arasında qohumluq münasibəti;
2) Şəxslərin birgə yaşayışı;
3) Şəxslərin ümumi ev təsərrüfatı.

Qeyd edilən şərtlərdən birincisinin aydınlaşdırılması baxımından qohumluq münasibətinə daxil olan şəxslərin dairəsini müəyyənləşdirmək lazım gəlir. Ailə Məcəlləsində həmçinin kimlərin qohum hesab edilməsi məsələsinə də toxunulmamışdır. Bu səbəbdən qohumluq münasibətinə daxil olan şəxslərin dairəsini müəyyənləşdirmək üçün Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə müraciət etmək ehtiyacı yaranır. Mülki Məcəllədə hüquqi şəxsə aidiyyəti olan şəxslərə münasibətdə şəxsin qohumları kimi onun əri (arvadı), valideynləri, o cümlədən ərinin (arvadının) valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənləri), qardaşları və bacıları müəyyənləşdirilmişdir [4, mad. 49-1.1.3]. Mülki Prosessual Məcəllədə isə "qohum" dedikdə, babaya və nənəyə qədər əcdadları ümumi olan şəxslər, ər-arvadın yaxın qohumları, babanın, nənənin, valideynin, övladlığa götürənin, doğma və ögey qardaş və bacının, uşağın, övladlığa götürülənin və ya nəvənin əri (arvadı) və ya onların yaxın qohumlarının nəzərdə tutulduğu qeyd edilmişdir [5, mad. 19]. Bununla yanaşı, Mülki Prosessual Məcəllə yaxın qohumlar dairəsini də aydınlaşdırmış və bu dairəyə babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər və nəvələri aid etmişdir [5, mad. 19]. Onu da qeyd etmək lazımdır ki, Mülki Prosessual Məcəllənin müəyyənləşdirdiyi qohumlar və yaxın qohumlar dairəsi eyni qaydada Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində də müəyyənləşdirilmişdir [7, mad. 7.0.32, 7.0.33].

Beləliklə, hazırki qanunvericilikdə ailə anlayışına bütün hüquq sahələri üçün keçərli olan vahid anlayış verilməmişdir. Lakin nəzərə alınmalıdır ki, “ailə” terminindən həm ailə qanunvericiliyində, həm də sosial təminat qanunvericiliyi kimi bir sıra digər hüquq sahələrində istifadə edilmişdir. Buna ən bariz misal kimi “ailə başçısını itirməyə görə əmək pensiyası hüququ”nu göstərmək mümkündür. Ailə anlayışına ailə qanunvericiliyi aydınlıq gətirmədiyindən ailə başçısını itirməyə görə əmək pensiyası hüququnun realizəsi zamanı bir sıra suallar yaranır ki, bu sualların qanunvericilikdə cavabı göstərilməmişdir.

b) “Ailə başçısını itirməyə görə əmək pensiyası” nədir?

Ailə başçısını itirməyə görə əmək pensiyasının əsasıAzərbaycan Respublikasının ali qanunvericilik aktı olan Konstitusiyadan irəli gəlir. Konstitusiyaya əsasən hər kəsin ailə başçısını itirməyə görə sosial təminat hüququ vardır [1, mad 38].

Ailə başçısını itirməyə görə əmək pensiyasının anlayışı Qanunda əmək pensiyası anlayışının tərkibində müəyyən edilmişdir. Belə ki, Qanun ailə başçısını itirməyə görə əmək pensiyasını sığortaolunanların ölümü ilə əlaqədar onların ailə üzvlərinin itirdikləri gəlirlərin kompensasiyası məqsədilə vətəndaşlara ödənilən aylıq pul ödənişi kimi müəyyən edir [2, mad. 1.0.1].

Əmək pensiyasının bu növündən faydalanmaq hüququ olan şəxslərin dairəsi və ailə başçısını itirməyə görə pensiyanın təyinat şərtləri Qanunun IV fəslində müəyyən edilmişdir. Həmin fəslin normalarına əsasən vəfat etmiş ailə başçısınınövladlarının, atasının, anasının, ərinin, arvadının, babasının, nənəsinin, qardaşının, bacısının, ögey valideynlərinin, ögey övladlarının, övladlığa götürdüyü şəxslərin və ya onu övladlığa götürən şəxslərin Qanunda müəyyənləşdirilən şərtlər daxilində ailə başçısını itirməyə görə əmək pensiyası hüququ vardır [2, mad. 14, 15, 16]. Əmək pensiyasının bu növünün təyinatı üçün vəfat etmiş şəxsin əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olması tələb edilir [2, mad. 17].

Qeyd etmək zəruridir ki, bir çox ölkələrin qanunvericiliyində “ailə başçısını itirməyə görə əmək pensiyası” əvəzinə “ailəni dolandıran şəxsin itirilməsinə görə pensiya” anlayışından istifadə edilir. Bu məsələ barəsində *“Ailə başçısı” yoxsa “ailəni dolandıran şəxs”* bölməsində daha ətraflı müzakirə aparılmışdır.

### 3. Məhkəmə mübahisəsi: işin qısa xülasəsi və məhkəmə prosesinin gedişatında yaranan suallar

Qanunvericilik normalarındakı boşluqların müəyyən edilməsi və aradan qaldırılması prosesində məhkəmələrin rolu danılmazdır. Mübahisələrin həlli zamanı məhkəmələr maddi və prosessual hüquq normalarını konkret işlərə münasibətdə tətbiq etdiklərinə görə bu normaların tətbiqi ilə əlaqədar yaranan problemlər məhkəmə proseslərində üzə çıxır. Bu baxımdan Bakı İnzibati Məhkəməsinin 2020-2021-ci illərdə icraatında olmuş bir inzibati işdəailə başçısını itirməyə görə əmək pensiyası hüququnun tətbiqi ilə bağlı bəzi məqamların üzərində dayanaq.

Qeyd edilən işdə iddiaçı AAA (qadın) və əri BBB (kişi) arasındakı nikah münasibətinə 2012-ci ildə məhkəmə qaydasında xitam verilmişdir. Tərəflərin bu nikahdan doğulmuş 2 övladı vardır. Nikaha xitam verildiyi tarixdən sonra tərəflər ayrı yaşamış, uşaqlar ananın himayəsində qalmışdırlar. Tərəflərdən heç biri ikinci dəfə nikaha daxil olmamışdır. BBB 2019-cu ilin yanvarında vəfat etmişdir. Həmin tarixədək təxminən 7 il ərzində tərəflərin hər ikisinin işi və gəliri olmuşdur. BBB uşaqlara görə aliment ödəmişdir. Tərəflərin övladlarından biri ölkədəki ali təhsil müəssisələrinin birindəəyani təhsil aldığını (19 yaş) əsas tutaraq ona ailə başçısını itirməyə görə

əmək pensiyası təyin edilməsi üçün müvafiq inzibati orqana müraciət etmiş və vəfat etmiş şəxsin əmək kitabçası təqdim edilmədiyinə (itmiş olduğuna) görə inzibati orqandan imtina cavabı almışdır. Cavabdan narazı qalan ərizəçi məhkəməyə müraciət etmişdir.

Sosial təminat və ailə qanunvericiliyinin qarşılıqlı əlaqəsi baxımından aşağıdakı suallar hazırki iş üzrə öz aktuallığını saxlamışdır:

a) Sosial təminat qanunvericiliyinin tələbləri baxımından ailə başçısı dedikdə ailədə kim nəzərdə tutulur?

b) Nikaha məhkəmə qaydasında xitam verildikdən sonra keçmiş ər keçmiş arvadın himayəsində qalan uşaqlarına münasibətdə ailə başçısı sayılırmı?

**4. Məhkəmə mübahisəsinin gedişatında yaranan suallara hansı cavabları vermək mümkündür?**

a) Sosial təminat qanunvericiliyinin tələbləri baxımından ailə başçısı dedikdə ailədə kim nəzərdə tutulur?

Ailə başçısını itirməyə görə əmək pensiyasının əsasında duran anlayışlardan biri “ailə başçısı” terminidir. Ailə üzvləri arasında kimlərin əmək pensiyasının bu növündən faydalanmaq hüququ olduğunu müəyyənləşdirməzdən əvvəl ailə başçısının özünün kim olduğunu aydınlaşdırmaq lazımdır. Qanunda və Ailə Məcəlləsində “ailə başçısı” termininin anlayışı verilməmişdir.

Qanunun ailə başçısını itirməyə görə əmək pensiyası hüququna həsr edilmiş IV fəsli bu pensiyanı almaq hüququ yaranan şəxsləri müəyyənləşdirən 14-cü maddə ilə başlayır. Həmin maddəyə olduğu kimi nəzər salaq:

*“Vəfat etmiş və ya həlak olmuş ailə başçısının aşağıdakı ailə üzvlərinin ailə başçısını itirməyə görə əmək pensiyası hüququ vardır”* [2, mad. 14.1]. (Qanun sonrakı hissədə bu pensiya növünün dairəsinə düşən şəxsləri müəyyənləşdirir)

Göründüyü kimi, maddənin mətnində də ailə başçısının kim olduğu aydınlaşdırılmamışdır və birbaşa şəkildə ailə başçısını itirməyə görə əmək pensiyası hüququ olan şəxslər müəyyənləşdirilmişdir.

Hazırda sosial təminat qanunvericiliyinin tələbləri baxımından ailə başçısı dedikdə ailədə kimin və ya kimlərin nəzərdə tutulduğu sualına cavab vermək üçün Qanunun 14.1-ci maddəsini fərdi qaydada hər ailəyə münasibətdə təhlil etmək lazım gəlir. Buna baxmayaraq bir sıra hallarda hətta adıçəkilən maddənin məzmunu baxımından da ailə başçısının kim olduğunu müəyyənləşdirmək mümkün olmur. Bu səbəbdən dəailə başçısı anlayışının qanunvericilikdə tənzimlənməsinə ehtiyac vardır.

b) Nikaha məhkəmə qaydasında xitam verildikdən sonra keçmiş ər keçmiş arvadın himayəsində qalan uşaqlarına münasibətdə ailə başçısı sayılırmı?

Təcrübədə keçmiş ər vəfat etdikdə onun keçmiş arvadının himayəsində qalan uşaqlarına ailə başçısını itirməyə görə əmək pensiyası təyinatı aparılır və valideynlərin nikah münasibətlərinə xitam verilməsi məsələsinə ümumiyyətlə diqqət yetirilmir. Buna baxmayaraq məsələyə qanun nəzərindən baxılsa, aşağıda da əsaslandırıldığı kimi hazırki qanunvericiliyə əsasən keçmiş ər uşaqlara münasibətdə ailə başçısı sayılmır.

İlkin olaraq nəzər yetirmək lazımdır ki, Konstitusiyanın *“Nikah hüququ”* adlanan maddəsində aşağıdakılar qeyd olunmuşdur:

I. Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda *ailə qurmaq* hüququ vardır.

II. <u>Nikah</u> könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

III. <u>*Nikah və ailə*</u> dövlətin himayəsindədir [1, mad. 34].

Göründüyü kimi Konstitusiya nikah və ailə arasında heç bir fərq qoymur və onları eyniləşdirir. Maddənin birinci bəndində hər kəsin nikah bağlamaq yox, ailə qurmaq hüququ təsbit edilmişdir. Uyğun olaraq ikinci bənddə isə nikahın könüllü razılıq əsasında bağlandığı qeyd edilmişdir. Beləliklə, iki bəndi ümumiləşdirsək, belə bir nəticəyə gəlmək mümkündür ki, <u>*ailə qurmaq hüququ olan hər kəs könüllü qaydada nikah bağlaya bilər*</u>. Həmçinin maddənin üçüncü bəndində nikah və ailənin dövlətin himayəsində olduğu qeyd edilmişdir. Hər üç bəndin qarşılıqlı təhlili belə bir nəticəyə gətirir ki, nikah bağlanması ailə qurmağın başlanğıcı hesab edilir və nikah bağlandıqdan sonra şəxslərin bu nikah əsasında yaşaması həmin ailəni formalaşdırır.

Konstitusiyada müəyyənləşdirilən ailə və nikah münasibətlərini daha detallı şəkildə tənzimləyən Ailə Məcəlləsində qeyd edilmişdir:

<u>*Nikah*</u> *kişi ilə qadının* <u>*ailə qurmaq məqsədilə*</u> *müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqıdır* [8, mad. 2.3].

Qeyd edilən normanın məzmunundan belə aydın olur ki, Ailə Məcəlləsi nikahı ailə qurmaq üçün tələb olunan ittifaq kimi dəyərləndirir – Məcəllənin tələbinə əsasən ailə nikah əsasında qurulur.

Beləliklə, Konstitusiyanın və Ailə Məcəlləsinin normaları ailə qurmağı nikahla əlaqələndirdiyinə görə nikah pozulduğu andan ailə də dağılmış hesab edilməlidir. Buna görə də əgər ailə dağılıbsa, artıq ailə üzvləri keçmiş ailə üzvləri hesab olunurlar. Əyani misalla göstərilsə, valideynlər və iki uşaqdan ibarət olan ailə dağıldıqda və uşaqlar valideynlərin biri ilə qaldıqda ailədən bir nəfər ayrılmış hesab edilir və artıq ailənin digər üzvləri ailədən ayrılan şəxsə münasibətdə keçmiş ailə üzvləri hesab edilirlər. Qanun isə hazırda keçmiş ailə üzvlərinin ailə başçısını itirməyə görə əmək pensiyası hüququnu tənzimləmir.

Yuxarıda qeyd edilənlərlə yanaşı, onu da nəzərə almaq lazımdır ki, tərəflər arasında nikah pozulsa da, bu hələ valideynlərdən hər hansı birinin valideynlik hüququndan məhrum edilməsi demək deyildir [8, mad. 64] və Ailə Məcəlləsinə əsasən valideynlərin uşaqlarını saxlamaq vəzifəsi vardır [8, mad. 75]. Buna görə də uşaqların valideynlərindən birinin himayəsində qalmasına baxmayaraq digər valideyn həmin uşaqların saxlanması üçün aliment ödəməlidir [8, mad. 75].

Digər tərəfdən onu da nəzərə almaq lazımdır ki, həm "Uşaq hüquqları haqqında" Konvensiyada (bundan sonra "Konvensiya"), həm də "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda uşaq hüquqlarının ən yüksək səviyyədə təmin edilməli olduğu və hər bir vəziyyətdə uşaqların mənafeyinin üstün götürülməli olduğu təsbit edilmişdir. Konvensiyanın və "Uşaq hüquqları haqqında" Qanunun müvafiq normalarına olduğu kimi nəzər salaq:

*Uşaqların sosial təminat məsələləri ilə məşğul olan dövlət idarələri və özəl müəssisələr, məhkəmələr, inzibati orqanlar və ya qanunvericilik orqanları tərəfindən görülən bütün tədbirlərdə əsas diqqət uşaq mənafelərinin daha yaxşı təmin edilməsinə yönəldilməlidir* [11, mad. 3.1].

*Dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar. Azərbaycan Respublikasının normativ hüquqi aktları və müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir. Uşağın hüquq və mənafelərini məhdudlaşdıran hər hansı əqd etibarsızdır* [10, mad. 5].

Beləliklə, nikahına xitam verilmiş valideynlərin övladlarının ailə başçısını itirməyə görə əmək pensiyası hüququ tənzimlənərkən aliment ödəyən valideynin vəfatı və ya həlak olması nəticəsində uşaqların müəyyən gəlirdən məhrum olması faktı nəzərdə saxlanmalıdır. Buna görə də nikaha xitam verildikdən sonra ailədən ayrılan üzvün digərlərinə münasibətdə keçmiş ailə üzvü hesab edilməli olmasına və Qanunda keçmiş ailə üzvlərinin ailə başçısını itirməyə görə əmək pensiyası hüququ müəyyənləşdirilməməsinə baxmayaraq uşaqların itirdikləri gəlirin kompensasiyasını əldə etmək hüququ yaranmalıdır. Bu məsələnin hansı şəkildə tənzimlənməsinin mümkünlüyü ilə bağlı "Nəticə" bölməsində təklif verilmişdir.

## 5. "Ailə başçısı" yoxsa "ailəni dolandıran şəxs"?

Sosial təminat qanunvericiliyində vətəndaşların ***ailə başçısını*** itirməyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə sosial müavinət [9, mad. 4.0.1.5] hüququ müəyyənləşdirilmişdir. Hesab edirəm ki, qeyd edilən hüquqların adlandırılmasında "ailə başçısı" terminindən istifadə uğurlu seçim olmamışdır.

İlkin olaraq nəzərə almaq lazımdır ki, hazırda cəmiyyətimizdə ailə başçısı qismində ailəni idarə edən şəxs tanınır və bir sıra hallarda ailəni idarə edən şəxsin ümumiyyətlə ailəyə maddi dəstəyi olmur. Məsələni daha da aydınlaşdırmaq üçün belə bir misal göstərək: Ailə üç nəfərdən – I qrup əlil ata, II qrup əlil ana və onların qızından ibarətdirsə və qız ailəyə yeganə gəlir gətirən şəxsdirsə, hazırkı sosial təminat qanunvericiliyinin tələblərinə uyğun olaraq ***qız vəfat etdiyi təqdirdə onun valideynlərinin ailə başçısını itirməyə görə əmək pensiyası hüququ yaranır***. Lakin övladın ailə başçısı adlandırılması cəmiyyətin dəyərləri baxımından uğurlu səslənmir.

Onu da qeyd etmək lazımdır ki, "ailə başçısını itirməyə görə əmək pensiyası" ifadəsi ingilis dilinə "labor pension for loss of breadwinner" kimi tərcümə edilir [13]. Əgər bu ifadə yenidən hərfi olaraq ingilis dilindən Azərbaycan dilinə tərcümə edilsə, mənası "*çörək qazananın itirilməsinə görə əmək pensiyası*" olur.

Azərbaycan Respublikasının sosial təminat qanunvericiliyinə yaxın olan Rusiya Federasiyasının sosial təminat qanunvericiliyinə nəzər yetirək. Burada ailə başçısını itirməyə görə pensiya "пенсия по случаю потери кормильца" kimi ifadə edilir ki, bu ifadənin də Azərbaycan dilinə hərfi tərcüməsi "*ailəni dolandıran şəxsi itirməyə görə pensiya*"dır [12, mad. 5]. Göründüyü kimi xarici yanaşmada diqqət məhz *gəlir qazanan şəxsin* itirilməsinə yönəlmişdir.

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, Mülki Prosessual [5, mad. 36.6, 148.1, 443.0.5] və Cinayət Prosessual Məcəllələrdə [7, mad. 160.1] müvafiq olaraq "ailəni dolandıran" və "ailəni dolandıran şəxs" anlayışlarından istifadə edilmişdir. Bu da o deməkdir ki, ailəni dolandıran şəxs anlayışı Azərbaycan Respublikasının qanunvericiliyinə yad anlayış deyil və sosial təminat qanunvericiliyində də bu terminin istifadə edilməsi mümkün və hətta labüddür.

Yuxarıda qeyd olunanlara yanaşı o da nəzərə alınmalıdır ki, "ailə başçısı" terminindən Konstitusiyanın 38-ci maddəsində istifadə edilmişdir və Qanunda onun istifadəsi də Konstitusiyadan irəli gəlir. Bu səbəbdən də Qanuna dəyişiklik ediləcəyi təqdirdə bu termindən Konstitusiyada da istifadə edildiyi nəzərə alınmalıdır.

**6. "Ailə üzvləri" yoxsa"yaxın qohumlar" – düzgün termin hansıdır?**

Qanunun 14-cü maddəsi "Ailə başçısını itirməyə görə əmək pensiyası hüququ olan ***ailə üzvləri***" adlanır. Maddənin ilkin bəndində ailə başçısını itirməyə görə əmək pensiyası hüququ olan ***ailə üzvlərinin*** dairəsi müəyyənləşdirilir və ailə üzvləri qismində vəfat etmiş şəxsin övladları, atası, anası, əri (arvadı), babası, nənəsi, qardaşı, bacısı qeyd edilir [2, mad. 14.1].

Nəzərə alınmalı məsələdir ki, ailə münasibətlərini tənzimləyən əsas normativ sənəd Ailə Məcəlləsi [8, mad. 2.1], mülki hüquq münasibətlərini tənzimləyən Mülki Məcəllə [4, mad. 228.5] şəxsin ailə üzvləri kimi onun ***ərini, arvadını, valideynlərini və uşaqlarını*** müəyyənləşdirmişdir.

Məqalənin "Qanunvericilikdə olan əsas anlayışlar" bölməsində Mülki Prosessual Məcəlləyə və Cinayət Prosessual Məcəlləyə əsasən "yaxın qohum" hüquq termininin anlayışına kimlərin daxil olduğu qeyd edilmişdir. Əgər həmin şəxslər dairəsinə diqqət edilsə, Qanunun 14-cü maddəsində müəyyənləşdirilən bütün şəxslərin, yəni vəfat etmiş şəxsin övladlarının, atasının, anasının, ərinin (arvadının), babasının, nənəsinin, qardaşının, bacısının hüquqi baxımdan onun yaxın qohumları hesab olunduğu nəticəsinə gəlinər.

Beləliklə, Qanunun ailə üzvü hesab etdiyi şəxslər Ailə Məcəlləsi və Mülki Məcəlləyə əsasən ailə üzvü hesab edilmədiyinə görə bu halda Qanunla adıçəkilən məcəllələr arasında ziddiyyət yaranır. Bu səbəbdən hesab edirəm ki, Qanunun Ailə Məcəlləsi və Mülki Məcəlləyə uyğunlaşdırılması qanunvericinin gündəmində olan məsələlərdən biri olmalıdır.

**7. Ailə başçısını qətlə yetirmiş ailə üzvünün ailə başçısını itirməyə görə əmək pensiyası hüququ**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi şəxsin qəsdən [6, mad. 120] öldürülməsinə görə cinayət məsuliyyətinəzərdə tutur. Buna əlavə olaraq, Mülki Məcəlləyə əsasən bir sıra hallarda şəxs məhkəmə qərarı əsasında *ləyaqətsiz vərəsə* hesab edilməklə vərəsəlik hüququndan məhrum edilə bilər [4, mad. 1137].

Nəzərə almaq lazımdır ki, ailə başçısının ölümünün onun ailə üzvlərindən birinin və ya bir neçəsinin təqsiri nəticəsində baş verməsi mümkün bir haldır. Hazırda Azərbaycan Respublikasının sosial təminat qanunvericiliyində ailə başçısını qətlə yetirmişailə üzvünün ailə başçısını itirməyə görə əmək pensiyası hüququ məsələsinə toxunulmamışdır. Bu məsələ ilə əlaqədar digər ölkələrin qanunvericiliyinə nəzər salsaq, Rusiya Federasiyasının pensiya qanunvericiliyində qeyd edilən şəxsin ailə başçısını itirməyə görə əmək pensiyası hüququ olmadığının müəyyənləşdirildiyini görərik [14].

Ailə başçısını qətlə yetirmiş ailə üzvünün cinayət məsuliyyətinə cəlb olunmasını və ləyaqətsiz vərəsə hesab edilməsinin mümkünlüyünü nəzərə alaraq hesab edirəm ki, sosial təminat qanunvericiliyində də bu hal tənzimlənməlidir.

**8. Nəticə**

Qanunvericinin əsas məqsədlərindən biri həm qanunda aydın görünən, həm də təcrübədə üzə çıxan boşluqların aradan qaldırılması və qanunvericiliyin təkmilləşdirilməsi olmalıdır.

Bu məqalənin məqsədi ailə başçısını itirməyə görə əmək pensiyası hüququ ilə əlaqədar qanunvericilik normalarındakı boşluğun aradan qaldırılması olmuşdur. Məqalədə aparılan araşdırmaların nəticəsi olaraq qeyd olunanlarla əlaqədar aşağıdakı təkliflər irəli sürülür:

1) İlkin olaraq Konstitusiyaya, daha sonra Qanuna düzəliş edilərək “ailə başçısı” termini “ailəni dolandıran şəxs” termini ilə əvəz edilsin.

2) Yuxarıdakı bənddə qeyd edilən dəyişiklik edilənədək və ya edilmədiyi təqdirdə qanunvericilikdə “ailə başçısı” anlayışına aydınlıq gətirilsin.

3) Qanunun 14-cü maddəsinə aşağıdakı məzmunda *14-1*-ci maddə əlavə edilsin:

*14-1. Nikaha xitam verildikdən sonra valideynlərdən biri uşaqların saxlanması üçün aliment ödədiyi təqdirdə, digər valideynin himayəsində qalan övladların ailə başçısını itirməyə görə əmək pensiyası hüquqları Qanunun 14.1.1-ci maddəsinə uyğun qaydada tənzimlənir.*

4) Qanunun müvafiq hissələrində “ailə üzvləri” termini “yaxın qohumlar” termini ilə əvəz edilsin.

5) Qanunun 14-cü maddəsinə aşağıdakı məzmunda qeyd əlavə edilsin:

*Qeyd: Ailə başçısını qətlə yetirmiş ailə üzvünün ailə başçısını itirməyə görə əmək pensiyası hüququ yaranmır.*

Sosial təminat qanunvericiliyinin təkmilləşdirilməsi baxımından ailə başçısını itirməyə görə əmək pensiyası hüququ ilə bağlı məqalədə qeyd edilmiş təkliflər hazırki dövrdə aktualdır. Bu səbəbdən həmin təkliflər nəzərə alınarsa, Qanunun müvafiq maddələrində daha məqsədə uyğun terminlərdən istifadə edilər, nikaha xitam verildikdən sonra keçmiş ailə üzvləri olmuş şəxslərin ailə başçısını itirməyə görə əmək pensiyası hüquqları daha dəqiq şəkildə realizə olunar və ailə başçısının ölümünə səbəb olmuş əməli törədən şəxsin ailə başçısını itirməyə görə əmək pensiyası hüququ məsələsinə toxunulmuş olar.

## Biblioqrafiya

1. Azərbaycan Respublikasının Konstitusiyası. [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/897 (müraciət tarixi: 05.05.2021)

2. Azərbaycan Respublikasının “Əmək pensiyaları haqqında” Qanunu. [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/11566 (müraciət tarixi: 03.05.2021)

3. Azərbaycan Respublikasının “Ünvanlı dövlət sosial yardımı haqqında” Qanunu. [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/10854 (müraciət tarixi: 03.05.2021)

4. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. [Elektron resurs]. URL: http://e-qanun.az/framework/46944 (müraciət tarixi: 07.05.2021)

5. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. [Elektron resurs]. URL: http://e-qanun.az/framework/46945 (müraciət tarixi: 07.05.2021)

6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. [Elektron resurs]. URL: http://e-qanun.az/framework/46947 (müraciət tarixi: 05.05.2021)

7. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi. [Elektron resurs]. URL: http://e-qanun.az/framework/46950 (müraciət tarixi: 05.05.2021)

8. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. [Elektron resurs]. URL: http://e-qanun.az/framework/46946 (müraciət tarixi: 08.05.2021)

9. Azərbaycan Respublikasının Sosial müavinətlər haqqında Qanunu. [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/11508 (müraciət tarixi: 08.05.2021).

10. Azərbaycan Respublikasının Uşaq hüquqları haqqında Qanunu. [Elektron resurs]. URL: http://www.e-qanun.az/framework/3292 (müraciət tarixi: 08.05.2021)

11. Uşaq hüquqları haqqında Konvensiya. BMT-nin Baş Məclisinin 44-cü sessiyasında 20.11.1989-cu il tarixində qəbul edilib. [Elektron resurs]. URL: Konvensiyanın https://migration.gov.az/content/pdf/5acb09f3100d0_Uşaq%20hüquqları%20haqqında%20Konvensiya.pdf (müraciət tarixi: 07.05.2021).

12. Федеральный Закон Российской Федерации «О государственном пенсионном обеспечении в Российской Федерации». [Elektron resurs]. URL: http://pravo.gov.ru/proxy/ips/?docbody=&nd=102073906 (müraciət tarixi: 11.05.2021).

13. Labour Pension for Loss of Breadwinner (Survivor's Pension). [Elektron resurs]. URL: https://www.sosial.gov.az/en/survivor-pension (müraciət tarixi: 07.05.2021)

14. Pension Fund of the Russian Federation. Types of Pensions. [Elektron resurs]. URL: https://pfr.gov.ru/en/pens_system/type_pens/ (müraciət tarixi: 11.05.2021).

**Mammadova N.A.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.71-81**
**UDC 349.3**

## Labor pension for loss of breadwinner: disputable points in the realization of the right and their settlements

**Abstract:** In the development of the state in any sphere the role of the laws regulating the relations in that sphere is undeniable. Contradictions in legal acts to which special authority has been given in the regulation of certain sphere of public relations become the reason for the creation of questions whose answers are open in legislation in the parties who apply that laws. This article discusses the questions that arised in the practice in social security law regarding the right of pension for loss of breadwinner and gives some suggestions to the legislation about the same right.

**Keywords:** labor pension for loss of breadwinner; family; head of family; breadwinner; family members; close relatives.

### References

1. Constitution of the Azerbaijan Republic. Available at: http://www.e-qanun.az/framework/897 (accessed: 05.05.2021) (in Azerbaijani)

2. Law of Azerbaijan Republic "On Labor Pensions". Available at: http://www.e-qanun.az/framework/11566 (accessed: 03.05.2021) (in Azerbaijani)

3. Law of Azerbaijan Republic "On Addressed State Social Aid". Available at: http://www.e-qanun.az/framework/10854 accessed: 03.05.2021) (in Azerbaijani)

4. Civil Code of Azerbaijan Republic. Available at: http://e-qanun.az/framework/46944 (accessed: 07.05.2021) (in Azerbaijaini)

5. Civil Procedural Code of Azerbaijan Republic. Available at: http://e-qanun.az/framework/46945 (accessed: 07.05.2021) (in Azerbaijani)

6. Criminal Code of Azerbaijan Republic. Available at: http://e-qanun.az/framework/46947 (accessed: 05.05.2021) (in Azerbaijani)

♦ **Mammadova Nurana Asif** – Lawyer of the Centralized Branch on Judicial İssues of State Social Protection Fund, LLM student at Baku State University (Azerbaijan). E-mail:m.nurane1999@gmail.com

7. Criminal Procedural Code of Azerbaijan Republic. Available at: http://e-qanun.az/framework/46950 (accessed: 05.05.2021) (in Azerbaijani)
8. Family Code of Azerbaijan Republic. Available at: http://e-qanun.az/framework/46946 (accessed: 08.05.2021) (in Azerbaijani)
9. Law of Azerbaijan Republic on "Social allowances". Available at: http://www.e-qanun.az/framework/11508 (accessed: 08.05.2021) (in Azerbaijani)
10. Law of Azerbaijan Republic on "Rights of the child". Available at: http://www.e-qanun.az/framework/3292 (accessed: 08.05.2021) (in Azerbaijani)
11. Convention on the Rights of the Child (1989). Available at: https://migration.gov.az/content/pdf/5acb09f3100d0_Uşaq%20hüquqları%20haqqında%20Konvensiya.pdf (accessed: 07.05.2021) (in Azerbaijani)
12. Federal Law of Russian Federation on "State pension security". Available at: http://pravo.gov.ru/proxy/ips/?docbody=&nd=102073906 (accessed: 11.05.2021).
13. Labour Pension for Loss of Breadwinner (Survivor's Pension). Available at: https://www.sosial.gov.az/en/survivor-pension (accessed: 07.05.2021)
14. Pension Fund of the Russian Federation. Types of Pensions. Available at: https://pfr.gov.ru/en/pens_system/type_pens/ (accessed: 11.05.2021).

**Мамедова Н.А.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.64.71-81**
**УДК 349.3**

## Пенсия по потере кормильца: спорные моменты в реализации права и пути их разрешения

**Аннотация:** В развитии государства в разных сферах нельзя не учитывать значимость законов, регулирующих отношения в данной сфере.

При регулировании определенных сфер общественных отношений, противоречия, возникающие в правовых актах, вызывают ряд вопросов у сторон, применяющих нормы права, ответы на которые не отражены в законодательстве.

В данной статье отображается информация о вопросах, возникающих в практике применения права на получение пенсии по потере кормильцев сфере социального обеспечения, являющегося одним из основных направлений законодательства; а также об изменениях и дополнениях в законодательство, связанных с применением этого права.

**Ключевые слова:** пенсия по потере кормильца; семья; кормилец; лицо, содержащее семью; члены семьи; близкие родственники.

### Библиография

1. Конституция Азербайджанской Республики. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/897 (дата обращения: 05.05.2021) (на азерб. яз.)

♦ **Мамедова Нурана Асиф кызы** – Юрист Центрального филиала по работе с судебными спорами Государственного Фонда Социальной Защиты, магистрант юридического факультета Бакинского Государственного Университета (Азербайджан). E-mail: m.nurane1999@gmail.com

2. Закон Азербайджанской Республики “О трудовых пенсиях”. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/11566 (дата обращения: 03.05.2021) (на азерб. яз.)

3. Закон Азербайджанской Республики “Об адресной государственной социальной помощи”. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/10854 (дата обращения: 03.05.2021) (на азерб. яз.)

4. Гражданский Кодекс Азербайджанской Республики. [Электронный ресурс]. Режим доступа: http://e-qanun.az/framework/46944 (дата обращения: 07.05.2021) (на азерб. яз.)

5. Гражданско-процессуальный Кодекс Азербайджанской Республики. [Электронный ресурс]. Режим доступа: http://e-qanun.az/framework/46945 (дата обращения: 07.05.2021) (на азерб. яз.)

6. Уголовный Кодекс Азербайджанской Республики. [Электронный ресурс]. Режим доступа: http://e-qanun.az/framework/46947 (дата обращения: 05.05.2021) (на азерб. яз.)

7. Уголовно-процессуальный Кодекс Азербайджанской Республики. [Электронный ресурс]. Режим доступа: http://e-qanun.az/framework/46950 (дата обращения: 05.05.2021) (на азерб. яз.)

8. Семейный Кодекс Азербайджанской Республики. [Электронный ресурс]. Режим доступа: http://e-qanun.az/framework/46946 (дата обращения: 08.05.2021) (на азерб. яз.)

9. Закон Азербайджанской Республики «О социальных пособиях». [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/11508 (дата обращения: 08.05.2021) (на азерб. яз.)

10. Закон Азербайджанской Республики «О правах детей». [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/3292 (дата обращения: 08.05.2021) (на азерб. яз.)

11. Конвенция ООН о правах детей 1989 г. [Электронный ресурс]. Режим доступа: https://migration.gov.az/content/pdf/5acb09f3100d0_Uşaq%20hüquqları%20haqqında%20Konvensiya.pdf (дата обращения: 07.05.2021) (на азерб. яз.)

12. Федеральный Закон Российской Федерации «О государственном пенсионном обеспечении в Российской Федерации». [Электронный ресурс]. Режим доступа: http://pravo.gov.ru/proxy/ips/?docbody=&nd=102073906 (дата обращения: 11.05.2021).

13. Labour Pension for Loss of Breadwinner (Survivor’s Pension). [Электронный ресурс]. Режим доступа: https://www.sosial.gov.az/en/survivor-pension (дата обращения: 07.05.2021)

14. Pension Fund of the Russian Federation. Types of Pensions. [Электронный ресурс]. Режим доступа: https://pfr.gov.ru/en/pens_system/type_pens/ (дата обращения: 11.05.2021).